# Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi

# QAYDALARI

**“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanının 1.3.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə “Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi QAYDALARI” hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 508 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.**

**“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 4.3-cü maddəsinə uyğun olaraq, yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktları müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.**

**Yerli icra hakimiyyəti orqanının normativ xarakterli aktını yerli icra hakimiyyətinin başçısı qəbul edir və imzalayır.**

**Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin II və III hissələrinə uyğun olaraq yerli özünüidarə orqanlarının normativ xarakterli aktları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə, yerli vergilər və ödənişlərlə bağlı aktları isə bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Yerli özünüidarə orqanının normativ xarakterli aktını bələdiyyənin sədri imzalayır.**

**Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktları, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda, Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.**

# “Normativ hüquqi aktlar haqqında”

# Konstitusiya Qanunu

**“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral 384 nömrəli FƏRMANI**

**Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 483 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında ƏSASNAMƏ”**

**Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında ƏSASNAMƏ”**

**Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 508 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi QAYDALARI”**

**Nazirlər Kabinetinin 2011-ci il 11 noyabr tarixli 184 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi QAYDASI”**

**Nazirlər Kabinetinin 2012-ci il 25 iyun tarixli 142 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin “Elektron hökumət” portalında yerləşdirilməsi Q A Y D A L A R I”**

# Hüquqi akt

normativ hüquqi akt — normativ xarakterli akt — qeyri-normativ hüquqi akt

**Normativ hüquqi akt** – tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd.

**Normativ xarakterli akt** – bu Konstitusiya Qanununda nəzərdə tutulan dövlət və ya yerli özünüidarə orqanı tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd.

**Qeyri-normativ hüquqi aktlar** - konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan hüquqi aktlar.

**Normativ hüquqi aktların növləri** Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi ilə müəyyən edilir.

## Qeyri-normativ hüquqi aktlar:

Milli Məclisin qərarları;
Azərbaycan Respublikası Prezidentinin sərəncamları;
Nazirlər Kabinetinin sərəncamları;
vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların aktları.

## Normativ xarakterli aktlar:

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları;

Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları;

Azərbaycan Respublikası Mərkəzi Bankının qərarları;

Məhkəmə-Hüquq Şurasının qərarları;

Milli Televiziya və Radio Şurasının qərarları;

yerli özünüidarə orqanlarının qərarları;

yerli icra hakimiyyəti orqanlarının qərarları.

## Normativ hüquqi aktların məcburi rekvizitləri :

1. aktın növü (Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı və s.);

2. hüquqi tənzimləmə predmetini əks etdirən normativ hüquqi aktın adı (sərlövhəsi);

3. aktın qəbul edildiyi tarix, yer və qeydiyyat nömrəsi;

4. müvafiq normativ hüquqi aktı rəsmi imzalamaq səlahiyyətinə malik olan şəxsin adı, soyadı, vəzifəsi və imzası.

## Normativ hüquqi aktın struktur elementləri :

**preambula, bölmə, fəsil, maddə, hissə, bənd, yarımbənd və abzas.**

## Normativ hüquqi aktın mətnində aşağıdakıların ifadə edilməsinə yol verilmir:

1. loru dili, Azərbaycan dilinin dialektləri və danışıq nitqinin ekspressiv formaları;

2. eyni mənada müxtəlif anlayışlar (terminlər);

3. Azərbaycan dilində eynimənalı sözlər və terminlər olduqda başqa dillərdən alınma sözlər;

4. anlaşılmaz söz birləşmələri, ümumiləşdirilmiş düşüncələr, çağırışlar, bədii müqayisələr, epitetlər, metaforalar;

5. abreviaturalar (məlum olanlar istisna olmaqla).

## Normativ hüquqi aktın (onun layihəsinin) ekspertizası aparılarkən aşağıdakı tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri aşkar edilməli və aradan qaldırılmalıdır:

1. dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri;

2. hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri;

3. sistem xarakterli tipik sui-istifadə amilləri;

4. sui-istifadəyə məruz qalmanın tipik təzahürləri.

## Dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri:

1. diskresion səlahiyyətlərin geniş olması;
2. səlahiyyətin dispozitiv imkan kimi müəyyənləşdirilməsi;
3. şəxsə məxsus hüquqların həyata keçirilməsi üçün ona lazım olduğundan daha yüksək tələblərin irəli sürülməsi;
4. fiziki və hüquqi şəxslərin hüquqlarından dövlət orqanı (vəzifəli şəxs) tərəfindən sui-istifadə edilməsi imkanı;
5. hüquqların həcminin əsassız dəyişdirilməsi;
6. qanundan irəli gələn normayaratmanın həddindən artıq sərbəst xarakter daşıması;
7. hüquqi-linqvistik sui-istifadəyə məruz qalma;
8. icra hakimiyyəti orqanının səlahiyyətindən kənar normativ hüquqi aktın qəbul edilməsi;
9. qanundakı boşluqların icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə doldurulması.

## Hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri:

**1. hüquqi tənzimləmədə boşluqların mövcudluğu;**

**2. inzibati prosedurların olmaması;**

**3. müsabiqə (hərrac) prosedurlarının olmaması;**

**4. konkret fəaliyyət sahəsində vəzifəli şəxslər üçün qadağa və məhdudiyyətlərin olmaması;**

**5. hüquqpozmaya görə vəzifəli şəxs üçün məsuliyyətin müəyyən edilməməsi;**

**6. dövlət orqanlarına, vəzifəli şəxslərə nəzarətin, o cümlədən ictimai nəzarətin müəyyənləşdirilməməsi;**

**7. informasiyanın şəffaflığı rejiminin pozulması.**

## Sistem xarakterli tipik sui-istifadə amillərinə aşağıdakılar aiddir:

1. yanlış məqsəd və prioritetlər;

2. kolliziyalar;

3. məcbur edilmiş sui-istifadəyə məruz qalma.

## Sui-istifadəyə məruz qalmanın tipik təzahürləri:

1. normativ hüquqi aktın qəbul edilməsi zamanı formal-texniki şərtlərə riayət olunmaması;

2. normativ hüquqi aktın qəbul edilməsi müddətinin göstərilməməsi;

3. mənafelər balansının pozulması (yalnız bir qrup subyektlər üçün imtiyazların nəzərdə tutulması).

# Normativ hüquqi aktın rəsmi dərc edilmə müddətləri və şərtləri

**Qanunlar və fərmanlar Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalandıqdan sonra 72 saat müddətində rəsmi dərc edilməlidir.**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməlidir.**

**Digər normativ hüquqi aktlar Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsindən sonra hökmən rəsmi dərc edilməlidir.**

# Normativ hüquqi aktların qüvvəyə minməsi

**Qanunlar, fərmanlar və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda onların rəsmi dərc edildiyi gündən qüvvəyə minir.**

**Digər normativ hüquqi aktlar, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.**

# NORMATİV HÜQUQİ AKTLARIN ZAMANA, MƏKANA VƏ ŞƏXSLƏRƏ GÖRƏ QÜVVƏSİ VƏ İCRASI

**Normativ hüquqi akt onun mətnində digər hal nəzərdə tutulmadıqda müddətsiz qüvvədədir.**

**Normativ hüquqi akt və ya onun struktur elementləri üçün qüvvədə olmanın müddəti müəyyən edilə bilər.**

**Normativ hüquqi aktın geriyə qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsi ilə tənzimlənir.**

**Normativ hüquqi aktlar Azərbaycan Respublikasının bütün ərazisində məcburi qüvvəyə malikdir.**

**Normativ hüquqi aktların qüvvəsi, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulmuş hallar istisna olmaqla, Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərə, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə şamil edilir.**

## Normativ hüquqi akt (onun struktur elementi) aşağıdakı hallarda öz qüvvəsini itirir:

1. normativ hüquqi aktın (onun struktur elementinin) tətbiqi müddəti başa çatdıqda;

2. normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları ilə nəzərdə tutulan hallarda ləğv edildikdə;

3. normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-3-cü və 6-cı, 7-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə.

# Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri

Azərbaycan Respublikasında qəbul edilən normativ hüquqi aktları, normativ xarakterli aktları, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarını, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamlarını, həmçinin onların rekvizitlərini əks etdirən dövlət informasiya ehtiyatıdır.

Dövlət Reyestri Ədliyyə Nazirliyi tərəfindən aparılır.

Ədliyyə Nazirliyi Dövlət Reyestrinin formalaşdırılmasını, aparılmasını, idarə olunmasını, tamlığını, müvafiq internet informasiya ehtiyatı vasitəsilə ümumi istifadə üçün daimi açıqlığını və mühafizəsini təmin edir.

**Dövlət Reyestri qeydiyyat informasiya sistemi vasitəsilə elektron variantda və Dövlət Reyestri kitabı vasitəsilə kağız variantda Azərbaycan Respublikasının dövlət dilində aparılır.**

**Dövlət Reyestrinə daxil edilmiş və rəsmi dərc edilmiş hüquqi aktların mətnləri arasında ziddiyyət olarsa, Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktın mətninə üstünlük verilir.**

**Hüquqi aktları qəbul etmiş orqanlar onları Dövlət Reyestrinə daxil edilmək üçün həmin aktların qəbul edildiyi gündən üç gün keçənədək Ədliyyə Nazirliyinə göndərirlər.**

**Qanunlar, fərmanlar və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları rəsmi dərc edildikdən sonra Dövlət Reyestrinin elektron variantında dərc edilir.**

# AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

**Aktın növü:** MƏRKƏZİ İCRA HAKİMİYYƏTİ ORQANLARININ QƏRARLARI

**Qəbul edildiyi tarix:** 12.08.2011

**Qeydiyyat nömrəsi:** 1-N

**Adı:** Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı əlavə tədbirlər haqqında

**Rəsmi dərc edildiyi mənbə:**

**Qüvvəyə minmə tarixi:** 16.08.2011

**Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu:** 380.030.000

**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:** 15201108120001

**Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix:** 15.08.2011



180
160
140
120
100
80
60
40
20
0
65
62
150
92
109
106
156
137
2011-1
2012-1
2013-1
2014 -1
Qanun
Farman
Qarar

## Normativ hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizası rəyinin strukturu

1. Normativ hüquqi aktın layihəsinin (qanunun) tənzimləmə sahəsinə aid normativ tənzimləmənin vəziyyəti (qüvvədə olan konkret normativ hüquqi aktların təhlili).
2. Normativ hüquqi aktın layihəsinin (qanunun) normayaratma fəaliyyətinin əsas prinsiplərinə uyğunluğu.
3. Normativ hüquqi aktın layihəsinin (qanunun) normalarının onun məqsəd və vəzifələrinə uyğunluğu.
4. Normativ tənzimləmə predmetinə uyğunluğu.
5. Normativ hüquqi aktın layihəsinin (qanunun) formasının və mahiyyətinin uyğunluğu.
6. Normativ hüquqi aktın layihəsinin (qanunun) daxili strukturunun məntiqliliyi.
7. Normativ hüquqi aktın layihəsinə daxil edilən (qanunda olan) normaların qarşılıqlı ziddiyyətsizliyi.
8. Normativ hüquqi aktın layihəsində (qanunda) bir dövlət orqanının digər dövlət orqanının səlahiyyətlərinə müdaxilə etməməsi.
9. Normativ hüquqi aktın layihəsinin (qanunun) müvafiq səlahiyyətə malik olan normayaratma orqanı tərəfindən öz səlahiyyəti daxilində qəbul edilməsi.
10. Normativ hüquqi aktın layihəsinin (qanunun) müəyyən edilmiş qaydada və formada qəbul edilməsi.
11. Normayaratma texnikasına uyğunluğu.
12. Normativ hüquqi aktda (onun layihəsində) sui-istifadə amillərinin və sui-istifadəyə məruz qalma təzahürlərinin, sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən digər müddəaların mövcud olub-olmaması.
13. Normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısının düzgünlüyü.
14. Normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar hazırlanmalı olan normativ hüquqi aktların siyahısının düzgünlüyü.
15. Çıxarılan nəticə.

**Layihə**

**Azərbaycan Respublikasının Qanunu**

**Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Gömrük Məcəlləsini "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2013-cü il 22 oktyabr tarixli 775-IVQD nömrəli Qanuna uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikası Gömrük Məcəlləsində (2011-ci il 24 iyun tarixli 164-IVQ nömrəli Qanunla təsdiq edilmişdir) aşağıdakı dəyişikliklər edilsin:

1. 82.5-ci maddə üzrə:

1.1. birinci cümlədə "Azərbaycan Respublikasının qanunları, müvafiq icra hakimiyyəti orqanının qərarı" sözləri "və Azərbaycan Respublikasının digər qanunları" sözləri ilə əvəz edilsin;

1.2. ikinci cümlədə "və digər normativ hüquqi aktların" və "(bəndi)" sözləri çıxarılsın;

2. 82.6-cı maddədə "(bəndini)" sözü çıxarılsın;

3. 214.1.4-cü maddədə "müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri "qanunla" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "___" ________" 2014-cü il
№________

Layihə

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**

**FƏRMANI**

## Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə”ni “Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 976-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718; 2007, № 5, maddə 460, № 11, maddə 1117; 2008, № 6, maddələr 496, 497; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 182; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1115) ilə təsdiq edilmiş **“**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə”nin 17.18-ci bəndində “fəxri fərmanlarla” sözlərindən sonra “, həmçinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən səlahiyyət verildiyi halda, müvafiq medallarla” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, ”___” _______2014-cü il
№ _______

**“Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” qanun layihəsinin qəbul olunması zərurətinin əsaslandırılması**

***“Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” qanun layihəsinin (bundan sonra - layihə) hazırlanmasının məqsədləri:***

***Layihənin mövcud hüquqi tənzimləmədə dəyişikliklər edən struktur elementinin hüquqi tənzimləmə predmeti:***

***Layihənin qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması:***

***Layihənin qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı:***

**Azərbaycan Respublikası**

**Ədliyyə Nazirliyinin**

**Qanunvericilik baş idarəsi**

## “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” qanun layihəsinə dair məcburi hüquqi ekspertiza rəyi

**1. Normativ hüquqi aktın layihəsinin (qanunun) tənzimləmə sahəsinə aid normativ tənzimləmənin vəziyyəti (qüvvədə olan konkret normativ hüquqi aktların təhlili).**

**2. Layihə “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 8-ci maddəsində təsbit olunan normayaratma fəaliyyətinin əsas prinsiplərinə uyğundur.**

**3. Layihənin normaları onun məqsəd və vəzifələrinə uyğundur.**

**4. Layihə normativ tənzimləmə predmetinə uyğundur.**

**5. Layihənin forması və mahiyyəti uyğundur.**

**6. Layihənin daxili strukturu məntiqlidir.**

**7. Layihəyə daxil edilən normalar qarşılıqlı ziddiyyətsizdir.**

**8. Layihədə bir dövlət orqanı tərəfindən digər dövlət orqanının səlahiyyətlərinin müdaxiləsinə yol verilməmişdir.**

**9. Layihənin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndinə uyğun olaraq Milli Məclis tərəfindən qəbul edilməsi təklif olunur.**

**10. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin II hissəsinə müvafiq olaraq layihənin qanun formasında qəbul edilməsi təklif olunur.**

**11. Layihə normayaratma texnikasına uyğun şəkildə hazırlanmışdır.**

**12. Layihədə sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri, sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən digər müddəalar aşkar edilməmişdir.**

**13. Layihənin qəbul edilməsi ilə əlaqədar hazırlanmalı olan normativ hüquqi aktlar (onların struktur elementləri) yoxdur.**

**14. Layihə dəstəklənir.**

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyinin
Qanunvericilik baş idarəsi

**“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsinə dair**

**MÜQAYİSƏLİ CƏDVƏL**

| Qüvvədə olan redaksiya | Dəyişikliklər nəzərə alınmaqla təklif edilən redaksiya |
|---|---|
| **Maddə 4. Abidələr üzərində mülkiyyət**<br><br>Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər.<br><br>Dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları , onların ayrı-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarlıq abidələri istisna olmaqla) yol verilmir. | **Maddə 4. Abidələr üzərində mülkiyyət**<br><br>Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər.<br><br>~~Dövlət mülkiyyətində olan abidələrin~~ **Dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət mülkiyyətində olan abidələrin** özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları , onların ayrı-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarlıq abidələri istisna olmaqla) yol verilmir. |

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsini hazırlamış şəxslərin siyahısı

Adil Əliyev - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəisi

Aygün Şahbanova - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin Iqtisadi normativ aktlar idarəsinin aparıcı məsləhətçisi

**Layihə**

**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

**Qərar**

**№________**

**Bakı şəhəri, “___” _______ 2014-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 195 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında**

“ADA” Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 195 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1030) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda “Diplomatik Akademiyası” sözləri ““ADA” Universiteti” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri** **Artur Rasi-zadə**